

# XALQIN ETİMADINI DOĞRULDAN MÜDRİK LİDER, UZAQGÖRƏN DİPLOMAT, QALİB SƏRKƏRDƏ

***Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan hazırda qüdrətli orduya, güclü iqtisadiyyata, beynəlxalq arenada önəmli mövqeyə malikdir, müstəqil xarici siyasəti olan qalib dövlət kimi heç zaman olmadığı qədər tarixi nailiyyətlərinin fərəhli səhifələrini yazmaqdadır. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Təqribən 19 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək ulu öndərimiz Heydər Əliyevin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı cənab İlham Əliyevə səs verdi. Ötən hər il xalqımızın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri cənab İlham Əliyev bu 19 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada mühüm aktor kimi tanınan dövlətə çevirdi. Məhz bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Ötən illər həm də onu göstərdi ki, dövlət başçısı cənab İlham Əliyev qurucu, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi böyük Liderdir.***

Prezident cənab İlham Əliyev praqmatik və çevik siyasəti, sistemli və ardıcıl yanaşması, inqilabi xarakter daşıyan islahatları ilə Azərbaycanı iqtisadi baxımdan qüdrətli dövlətə çevirib, zamanın hər bir çağırışına anında cavab verib. Bu illər ərzində regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqları nəzərə alınmaqla həyata keçirilib.

Ümummilli lider Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" fikri üzərində qurulan siyasət nəticəsində ötən 19 il ərzində misilsiz uğurlara imza atılıb. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə əsası qoyulan neft strategiyası sonrakı illərdə də davam etdirilib. Azərbaycanın qazandığı nailiyyətlərin təməlində məhz bu strategiya dayanır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi misilsiz layihələr reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. Həmçinin "Əsrin müqaviləsi" 2050-ci ilə qədər uzadılıb. Eyni zamanda, dövlətimizin başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib.

Prezident cənab İlham Əliyev bu və digər təşəbbüsləri ilə regionda mühüm beynəlxalq əməkdaşlıq platforması yaradıb ki, bu da beynəlxalq ekspertlər tərəfindən bölgənin inkişafında və təhlükəsizliyində mühüm amil kimi qiymətləndirilir. Beləliklə, dövlətimizin başçısı Azərbaycanda güclü əsaslara malik iqtisadi sistemin qurulmasını təmin edib ki, bu da qüdrətli dövlət quruculuğu, beynəlxalq arenada diplomatik nüfuzun təmin edilməsi istiqamətində ən mühüm komponentlərdən biridir. Təbii ki, məhz cənab İlham Əliyevin uzaqgörən və praqmatik iqtisadi siyasəti sayəsində Azərbaycanın malik olduğu imkanlar, uğurlu xarici siyasəti, beynəlxalq nüfuzu Vətən müharibəsinin tarixi Zəfərimizlə ən qısa müddətdə yekunlaşmasında əsas amillərdən oldu.

Bəli, məhz müstəqil xarici siyasət yürütməsi Azərbaycana böyük nüfuz və dəstək qazandırdı. Azərbaycan Prezidentinin siyasi biliyi, təcrübəsi, diplomatiya elmini dərindən bilməsi ölkəmizin xarici siyasət kursunun uğurla həyata keçirilməsində mühüm rol oynayır. Ölkələrin bir-birinin suverenliyinə hörmət etmələrinin, əməkdaşlığı gücləndirməklə qarşılıqlı faydalı əlaqələrin qurulmasının vacibliyini bəyan edən dövlət başçımız xarici siyasət kursunu bu prinsiplər əsasında qurub. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə, suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət və riayət edilməsi, həmçinin daxili işlərə qarışmama kimi prinsiplər əsasında əməkdaşlığa hazır olduğunu praktikada təsdiqləyib. Ölkəmiz ən ziddiyyətli beynəlxalq münasibətlər fonunda da bu xəttə sadiqliyini nümayiş etdirərək müstəqil xarici siyasət yürüdür. Bu səbəbdəndir ki, dünya Azərbaycanın sözünü eşidir, Prezidentimizin irəli sürdüyü beynəlxalq və regional təşəbbüslərə dəstək verir.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin müəllifi olduğu çoxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq çevik, innovativ və hücum diplomatiyası taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Bu statusuna tam adekvat olaraq dövlət başçımız həm daxili, həm də xarici siyasət kursunun həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli analiz qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir. Hər dövlət başçısına nəsib olmayan bu unikal şəxsi keyfiyyətlərin daşıyıcı olan Prezident İlham Əliyev harada çıxış etməsindən və mövqe bildirməsindən asılı olmayaraq, qısa zaman ərzində təşəbbüsü ələ alır və artıq start vəziyyətində qarşı tərəf və ya tərəflər üzərində ilkin üstünlüyünü təmin etmiş olur. Bu zaman probleme sistemli və ardıcıl yanaşma tərzi, səlis və məntiqli ifadə üslubu, auditoriya ilə işləmək və onu ələ almaq qabiliyyəti və bu kimi digər mühüm amillərdən istifadə məharəti və nəhayət, qarşı tərəfi təkzibolunmaz faktlar qarşısında qoymaq bacarığı, bənzərsiz liderlik xarizması ilə dövlət başçısı ən qatı siyasi opponentlərini də pat, təslim olunma vəziyyətinə salmağa müyəssər ola bilir.

Məhz onun düzgün və uzaqgörənliklə seçdiyi xarici siyasət prioritetləri hesabına bu gün Azərbaycan dünyada həm də etibarlı tərəfdaş kimi tanınır. Ölkəmiz qonşu dövlətlərlə müxtəlif platformalarda əməkdaşlıq əlaqələri quraraq mövcud münasibətlərini daha da möhkəmləndirə bildi. Burada Azərbaycan-Türkiyə-Gürcüstan və Azərbaycan-Rusiya-İran üçtərəfli əməkdaşlıq platformalarını xüsusi qeyd etmək lazımdır. Bununla yanaşı, Avropa İttifaqına üzv ölkələrin bəziləri ilə qurulan strateji tərəfdaşlıq əlaqələrini də vurğulamaq olar.

Bu illər ərzində beynəlxalq təsisatlarla da səmərəli əməkdaşlıq əlaqələri qurması ölkəmizin beynəlxalq imicinin formalaşmasında müstəsna əhəmiyyət kəsb edib. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Bu sıraya, həmçinin Türk Şurası, Müstəqil Dövlətlər Birliyi, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı və bu kimi digər qurumlarla səmərəli əməkdaşlıq əlaqələri daxildir.

Bütün dünyanı cənginə almış COVID-19 infeksiyasına qarşı mübarizənin pik nöqtəsinə çatdığı bir dövrdə də Azərbaycan Prezidenti liderlik təşəbbüslərini öz üzərinə götürərək adını dünya tarixinə yazdırmağı bacardı. Belə ki, məhz dövlətimizin başçısının təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr olunan Zirvə görüşləri keçirildi. Türk Şurası bu Zirvə görüşü ilə həm də COVID-19 pandemiyasına həsr olunmuş Sammit keçirən ilk beynəlxalq təşkilat kimi tarixə düşdü. Qoşulmama Hərəkatının Zirvə görüşündə isə dövlətimizin başçısı BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü irəli sürdü. Bu təşəbbüs də beynəlxalq birlik tərəfindən dəstəkləndi. Baş tutmuş xüsusi sessiya Azərbaycana, onun Prezidentinə beynəlxalq arenada olan böyük hörmətin təzahürüdür.

Prezident İlham Əliyevin uzaqgörən müdrik siyasəti sayəsində Azərbaycan son 19 il ərzində dünyada ümumbəşəri dəyərlərin qorunması və təbliği istiqamətində önəmli nailiyyətlərə imza atır. Dünyada sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşanması, bu fonda konfliktlərin artması tendensiyasının müşayiət olunması, xüsusilə də islamafobiya kimi təhlükəli meyillərin bir sıra dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı da qlobal əhəmiyyət kəsb edən məsələdir. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnək ola bilər.

"Multikulturalizm bizim adət-ənənəmizdir. Multikulturalizm - dövlət siyasəti və ictimai sifarişdir. Multikulturalizm bizim həyat tərzimizdir", - deyən dövlət başçımızın təşəbbüsü ilə "Bakı prosesi"nin əsası qoyulmuşdur. Bu təşəbbüs BMT çərçivəsində yüksək dəyərləndirilmişdir.

Cənab İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan paytaxtı ikiillik fasilə ilə iki müxtəlif mədəniyyətin daşıyıcılarının böyük idman bayramlarına evsahibliyi etmişdir. 2015-ci ildə tarixdə ilk dəfə olaraq I Avropa Oyunlarını keçirən Azərbaycan Respublikası, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etməklə mədəniyyətlər arasında unikal körpü rolunu oynamış və idman vasitəsilə sivilizasiyalararası barışıq və dialoqa böyük töhfə vermişdir. Bununla yanaşı, dövlət başçısı 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etmişdir. İlham Əliyevin islam həmrəyliyinə xidmət edən bu və digər təşəbbüsləri müsəlman dünyasında geniş rəğbət hissi ilə qarşılanmış və böyük siyasi rezonans doğurmuşdur.

Təbii ki, düşünülmüş və konkret hədəfə istiqamətlənmiş xarici siyasətdə ən ağrılı problemimiz olan Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, problemin həlli üçün hüquqi bazanın formalaşdırılması xüsusi yer tuturdu. Prezident İlham Əliyevin bütün səfərlərində, keçirdiyi görüşlərində, mötəbər tribunalarda etdiyi çıxışlarda Dağlıq Qarabağ münaqişəsi əsas mövzu oldu. Bununla yanaşı, dövlətimizin başçısı müvafiq qurumların, diplomatik missiyaların qarşısında bu məsələ ilə bağlı müvafiq tapşırıqlar qoydu və əməli addımlar atıldı, beləliklə, dünya Azərbaycanın ədalətə söykənən mövqeyi barədə məlumatlandırıldı. Həmçinin Azərbaycan Prezidentinin səyləri nəticəsində münaqişənin həlli üçün hüquqi baza kifayət qədər genişləndirildi. BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri ilə yanaşı, BMT Baş Assambleyasının, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, Avropa Parlamentinin, digər nüfuzlu beynəlxalq təşkilatların sənədlərində Azərbaycanın ərazi bütövlüyünün təmini ilə bağlı müddəalar yer aldı ki, bu sənədlər Vətən müharibəsində haqlı mövqeyimizi daha da gücləndirmiş oldu.

"Bu gün beynəlxalq münasibətlərdə "kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir". Bu fikri öz çıxışlarında, bəyanatlarında dəfələrlə vurğulayan cənab İlham Əliyev güclü siyasi iradəsi ilə güclü dövlət konsepsiyasını həyata keçirməklə iqtisadi, siyasi və hərbi güc yaratmağa nail oldu. Bu üç gücün vəhdəti Dağlıq Qarabağ münaqişəsini tarixə qovuşdurdu, bölgədə yeni reallıqlar yaratdı. Prezident İlham Əliyev bu gücə arxalanaraq 44 günlük müharibə dövründə həm də informasiya cəbhəsində xalqının, ölkəsinin maraqlarını qətiyyətlə müdafiə etdi.

Xarici KİV-lərə çoxsaylı müsahibələrində praqmatik siyasətçi, hadisələri, prosesləri dəqiq qiymətləndirən, öz mövqeyini təkzibolunmaz arqumentlərlə əsaslandırmağı bacaran lider olduğunu nümayiş etdirdi. Beləliklə, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin ata vəsiyyətini şərəflə yerinə yetirdi, xalqına, məcburi köçkünlərə verdiyi sözə sahib çıxdı, güclü Azərbaycan yaradaraq düşməni onunla hesablaşmağa vadar etdi. Azərbaycanın ərazi bütövlüyünü bərpa edən müdrik lider, böyük strateq, qalib sərkərdə kimi adını əbədi olaraq tarixə yazdırdı, 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi.

Cənab İlham Əliyevin Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Proqramı çərçivəsində ötən ilin dekabr ayında Brüsselə səfəri və orada keçirdiyi görüşlər, mətbuat konfransında səsləndirdiyi fikirlər bu qənaətə gəlməyə əsas verir ki, Ermənistanın siyasi rəhbərliyi getdikcə postmüharibə dövrünün reallıqlarını daha düzgün qiymətləndirməyə başlayır. Ermənistan Azərbaycanın irəli sürdüyü şərtlərlə razılaşmaq məcburiyyətindədir. Bu səfər çərçivəsində dekabrın 14-də Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla üçtərəfli, daha sonra isə Ermənistan rəhbəri ilə ikitərəfli görüş keçirdi. Bu, postmüharibə dönəmində ikitərəfli formatda keçirilən ilk görüş idi. Bu təmaslar çərçivəsində müharibədən sonrakı dövrlə bağlı geniş müzakirələr aparıldı və həllini gözləyən iki mühüm məsələ ilə bağlı razılaşma əldə olundu. Əvvəla, Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyası və demarkasiyası üçün ekspert qrupunun yaradılması ilə bağlı razılaşma. İkincisi isə Azərbaycanla Naxçıvanı birləşdirəcək kommunikasiya dəhlizlərinin açılması. Bu baxımdan Brüssel görüşü əslində 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il razılaşmalarına sadiqliyi nümayiş etdirən mühüm addım kimi qiymətləndirilməlidir.

Brüssel Sammitinin yekun sənədi olaraq qəbul edilmiş Bəyanat da Azərbaycanın milli maraqlarına cavab verir. Burada ilk növbədə üzv dövlətlərin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət, onlar arasında nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafına dəstək ifadə olunmuşdur. Heç bir halda, status məsələsi və "Dağlıq Qarabağ" ifadəsi danışıqların predmeti olmamış və yekun sənədə bu haqda heç bir bənd salınmamışdır.

Cari ilin 6 aprel tarixində Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü və vasitəçiliyi yenidən Brüsseldə Azərbaycan Prezidenti cənab İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş keçirilmişdir. Təxminən 5 saata qədər davam edən görüş çərçivəsində mühüm razılaşmalar əldə edilmişdir. Bu razılaşmalar Azərbaycanın milli maraqlarına tam cavab verir və Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin mühüm diplomatik uğuru kimi dəyərləndirilməlidir.

Əvvəla, əldə olunmuş ortaq mövqeyə görə, hər iki ölkənin xarici işlər nazirləri sülh sazişinin layihəsini hazırlamaq istiqamətində əməli fəaliyyətə başlamaq tapşırığı almışlar. Sülh sazişinin layihəsinin tərtibində Azərbaycanın irəli sürdüyü 5 baza prinsipi əsas götürülmüşdür. Başqa sözlə, Nikol Paşinyan həmin baza prinsiplərindən irəli gələrək, yəni Azərbaycanın ərazi bütövlüyünü qəbul etmək, ölkəmizə qarşı ərazi iddialarından əl çəkmək, təhlükəsizliyə təhdid yaratmamaq, sərhədləri müəyyən etmək və nəqliyyat-kommunikasiya əlaqələrini bərpa etmək, yəni Zəngəzur dəhlizini işə salmaq kimi məsələlərə loyal münasibət bildirdiyini dilinə gətirmiş, onların qəbuledilən olduğunu vurğulamışdır.

Avropa İttifaqı mina təmizlənməsi, girovların və itkinlərin geri qaytarılması məsələlərində də ekspert və maliyyə dəstəyi ayırmağa hazır olduğunu bəyan etmişdir.

Brüssel şəhərində mayın 22-si baş tutmuş sonuncu üçtərəfli görüş Azərbaycanla Ermənistan arasında həmin tarixə qədər aparılmış sülh danışıqlarının yeni mərhələsi oldu. Həmin görüşdə diqqətçəkən başlıca məqam bundan ibarət idi ki, Ermənistanın baş naziri tərəfindən Azərbaycanın irəli sürdüyü 5 baza prinsipi çərçivəsində sülh danışıqları qəbul edilmiş və aparılan danışıqlardakı irəliləyişlər məhz bu baza prinsipləri üzərində mümkün olmuşdur. Qarşı tərəfin bütün səylərinə baxmayaraq, heç bir status məsələsi, əvvəlki görüşlərdə olduğu kimi, yenə də gündəlikdə deyildi. Ermənilərin tez-tez istifadə etməyə cəhd göstərdikləri, lakin cənab İlham Əliyevin diplomatik leksikondan qətiyyətlə uzaqlaşdırdığı heç bir ifadəyə rast gəlinmədi. Doğrudur, Şarl Mişel Azərbaycanda yaşayan etnik ermənilərin hüquq və təhlükəsizlik məsələlərinə toxundu, ancaq onu da qeyd etməliyik ki, dövlət başçımızın dəfələrlə bildirdiyi kimi, onlar Azərbaycan vətəndaşlarıdır və ölkəmizin qanunlarının aliliyini qəbul etdikləri andan çoxmillətli respublikamızda yaşayan digər xalqlar kimi öz hüquqlarından istifadə edərək sülh və təhlükəsizlik şəraitində rahat yaşaya bilərlər. Sirr deyil ki, sülh prosesinin sürətləndirilməsi üçün, hər şeydən əvvəl, sərhədlərin qarşılıqlı surətdə tanınması və delimitasiya prosesinin başa çatdırılması çox vacibdir. Bu istiqamətdə də danışıqlarda irəliləyişlərə nail olundu. Bu müstəvidə gömrük qaydalarının müəyyənləşdirilməsi üzrə razılaşmanın əldə olunması da qeyd edilməlidir. Azərbaycan üçün bu, kifayət qədər həssas mövzudur, çünki Laçın dəhlizi və Zəngəzur dəhlizi ilə paralellik nöqteyi-nəzərdən çox aktualdır. Tam əminliklə deyə bilərik ki, Brüssel danışıqlarının bu 3-cü görüşü müzakirə olunan məsələlər və əldə olunan nəticələr baxımından çox məhsuldar olmuş və Azərbaycanın milli maraqlarına tam cavab verəcək səviyyədədir. Bu da, sözsüz ki, cənab İlham Əliyevin xarici siyasət strategiyasının düzgün qurulmasından, mühüm məsələlərdə məharətli diplomat kimi uzaqgörən gedişlərindən, kritik vəziyyətlərdə soyuqqanlı və praqmatik, ölkəmizin milli maraqlarına tam uyğun qərarların qəbul edilməsinə nail olmaq bacarığından xəbər verir.

Bir sözlə, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan diplomatiyası Moskvada və Soçidə olduğu kimi, Brüsseldə də postmüharibə dövrünün həllini gözləyən məsələlərin tənzimlənməsi istiqamətində milli maraqları ləyaqətlə müdafiə etmiş, Brüssel sülh gündəliyini formalaşdırmağa nail olmuşdur.

Dövlət başçısının müəyyən etdiyi müstəqil xarici siyasət kursu dünyada bir-birinə qarşı duran qütblər tərəfindən də müsbət qiymətləndirilir. Azərbaycanın müxtəlif güc mərkəzlərindən bərabər məsafədə mövqe seçməsi, ikitərəfli münasibətlərdə bərabər hüquq, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiq qalması, eyni zamanda ikitərəfli əməkdaşlığın heç bir halda üçüncü tərəfi hədəfə almaması reallığı beynəlxalq aləmdə dövlətimizə və onun rəhbərinə olan loyal münasibətin formalaşmasını şərtləndirən əsas amillərdir.

Məhz iti fəhmi və diplomatik məharəti hesabına Prezident cənab İlham Əliyevin son 19 il ərzində ölkəmizin və eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində atdığı çoxkombinasiyalı siyasi gedişləri heyranlıq doğurur. Nəzərə almaq lazımdır ki, enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementi statusunda çıxış edir. Xüsusilə son aylar ərzində Ukraynada baş verən hadisələr fonunda dünyada enerji daşıyıcılarının qiymətinin artdığı bir dönəmdə müasir dünyanın siyasi mənzərəsi daha hərbi bloklara mənsubiyyətlə yox, enerji ehtiyatlarına malik olub-olmamaq bölgüsü ilə müəyyən ediləcəkdir fikri təsadüfi sayılmamalıdır.

**Emin QASIMOV,**
**"Respublika".**